Aqrar Xidmətlər Agentliyi

# Dördləkəli Dənyeyən

## (Callocobruchus maculatus F.)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Dördləkəli dənyeyənin yumurtası ovalvari olub, bir tərəfi uzunsov, uzunluğu 0,7 mm, eni 0,46 mm-dir. Üst tərəfi qabarıq, alt tərəfi yastıdır. Yenicə qoyulmuş yumurta ağımtıl rəngli, şəffaf olub, üzəri hamardır.

Sürfə dörd dəfə qabıq dəyişir, bədəni birinci yaşda 1 mm, axırıncı yaşda isə 4 mm-dir. Sürfələrin üç cüt iki buğumlu ağ rəngli ayaqları var. Pupu ağ rəngdə, tüksüzdür. Bədəni oval formada olub, qarıncığın axırında daralır. Yetkin həşəratda baş döş tərəfə əyilib, gözləri qabarıq, bığcıqları təsbeh formada olmaqla 2 buğumdan ibarətdir. Buğumlar erkəklərdə bir qədər uzun, dişilərdə nisbətən qısa olur. Birinci və ikinci cüt ayaqların uzunluğu bir bərabərdə, dal ayaqlar isə nisbətən uzundur. Bədənin uzunluğu 3 mm, eni 1,5-1,7 mm-dir.

## Mübarizə tədbirləri

- aqrotexniki tədbir olaraq zərərverici yayılan sahələrdə bitkilərin məhsulu itkisiz, həm də vaxtında toplanıb qısa müddətdə sahədən daşınmalıdır;

-məhsul döyülən xırmanlarda bitki qalıqları toplanıb yandırılmalıdır;

-zərərverici ilə yoluxmuş sahələr məhsul yığıldıqdan sonra dərhal dərin şumlanmalı və yüksək normada suvarılmalıdır;

-dənlər yalnız ağzı möhkəm bağlanmış kisələrə doldurulub saxlanılmalıdır. Bu tədbir toxumlar içərisindən çıxmış -böcəklərin məhv olmasına səbəb olur;

-karantin qoyulmuş rayonlardan digər rayonlara dənli-paxlalı bitki toxumlarının göndərilməsi qadağan olunmalıdır;

-zərərverici aşkar edilmiş toxumlar müvafiq qaydalara uyğun fumiqasiya olunmalıdır.



**Zərərverici**